AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

# AVROPA STATİSTİKA SİSTEMİNİN KEYFİYYƏT TƏMİNATI STRUKTURU

Bakı - 2016

Azərbaycan Respublikası Dövlət
Statistika Komitəsinin 2016-cı il
23 noyabr tarixli 17/07s nömrəli
sərəncamına 1 nömrəli əlavə

# Avropa Statistika Sisteminin Keyfiyyət Təminatı Strukturu

## Mündəricat

Giriş....................................................4

Avropa Statistika Sisteminin Keyfiyyət Təminatı Strukturu ....................................................7

İnstitusional mühit....................................................7

4-cü prinsip: Keyfiyyətin təmin edilməsi üzrə öhdəçilik....................................................7

Statistik proseslər ....................................................11

7-ci prinsip: Statistik metodologiyaların əsaslılığı ....................................................11

8-ci prinsip: Statistik üsulların uyğunluğu ....................................................14

9-cu prinsip: Respondentlərə düşən yükün azaldılması ....................................................19

10-cu prinsip: Qənaətcillik. ....................................................23

Çıxış statistik məlumatlar....................................................25

11-ci prinsip: Aktuallıq. ....................................................25

12-ci prinsip: Dəqiqlik və etibarlılıq ....................................................27

13-cü prinsip: Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə ....................................................29

14-cü prinsip: Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik ....................................................31

15-ci prinsip: Bərabər giriş və aydınlıq ....................................................34

## Giriş

Avropa Statistikasının Normalar Məcəlləsinin tətbiqinə kömək məqsədilə Keyfiyyət üzrə Dəstək qrupu məcəlləni nəzərdən keçirərək Avropa Statistika Sisteminin Keyfiyyət Təminatı Strukturunun (ASS KTS) köməkçi sənədini hazırlayıb. ASS KTS göstəricilərin yerinə yetirilməsini əsaslandıran və istiqamətləndirən mümkün fəaliyyətləri, metod və vasitələri müəyyənləşdirir və bu sənəd Normalar Məcəlləsinin hər bir prinsipinə riayət edilməsi tələb olunan göstəricilərin tətbiq olunmasında zəruri addımlar atmağa yardım edir. Normalar Məcəlləsi ekspert rəyi və qiymətləndirmənin digər formaları əsasında Milli səviyyədə və Birliyin statistika orqanlarının uyğunluğunun yoxlanılması üzrə prinsip və göstəriciləri əsas standartlar kimi müəyyənləşdirir, ASS KTS isə hər bir göstərici üzrə Normalar Məcəlləsinin yerinə yetirilməsinə kömək edən fəaliyyətləri, metod və vasitələri təsvir edir. Dəstək qrupunun iş proqramına uyğun olaraq ASS KTS Avropa Statistika Sistemi Komitəsinin 28 sentyabr 2011-ci ildə qəbul etdiyi Avropa Statistikasının Normalar Məcəlləsinin 4-cü və 7-15-ci prinsiplərinin yerinə yetirilməsinə kömək məqsədilə hazırlanıb.

**Təkmilləşmə yanaşması**

ASS KTS prinsipdən göstəriciyə qədər sistemli şəkildə göstəricinin praktik və effektiv yerinə yetirilməsinə kömək edən fəaliyyət yönümlü yanaşma ilə müəyyən edilmiş və tövsiyə edilən fəaliyyətlər, metodlar və vasitələrdən ibarətdir. Bu, Avropa Statistika Sisteminin (ASS) üzvləri tərəfindən artıq istifadə olunan fəaliyyətlər, metod və vasitələrin müfəssəl toplusudur. Bununla belə, ASS-nin statistika orqanları tərəfindən yeni fəaliyyətlər formalaşdırılan zaman bu sənəd davamlı olaraq təkmilləşdirilir və genişləndirilir.

Normalar Məcəlləsinin tətbiqinin təkmilləşməsi və biliklərin inkişaf etdirilməsi baxımından tövsiyə edilən fəaliyyətlərə, metod və vasitələrə inkişaf etdirilən və genişləndirilən alətlər dəstinin bir hissəsi kimi yanaşılmalıdır. Həmçinin bu Məcəllənin tələblərinin yerinə yetirilməsi üçün nəyin tələb olunduğunu bilmək vacibdir (məsələn, verilmiş göstəricini tətbiq etmək üçün hansı “fəaliyyət”lərin yerinə yetirilməsi tövsiyə olunur).

Həmçinin bu tövsiyə olunmuş fəaliyyətlər, metodlar və alətlər elə bir yolla tərtib olunur ki, onlar Üzv Dövlətlərdə mövcud olan təşkilati qərarlardan asılı olmamalı, eləcə də bəzi ölkələrdə yaxşı işləyən xüsusi nümunələr vasitəsilə müntəzəm olaraq möhkəmlənməlidirlər. Müəyyən edilmiş bütün fəaliyyətlər, metodlar və alətlər bəzi Milli Statistika İnstitutlarında artıq həyata keçirilmiş olan və faydalı olması sübuta yetirilmiş mövcud təcrübələrlə əlaqələndirilirlər.

Ümumiyyətlə, ASS KTS Avropa Statistikasının istehsalı və yayılmasında iştirak edən müxtəlif icraçılar (məsələn, statistika orqanları və digər milli istehsalçılar) tərəfindən istifadə edilə bilər, bu zaman bəzi uyğunlaşmalar da lazım ola bilər. İzahatlar və təfərrüatların əlavə edilməsi məqsədi ilə ASS KTS Avropa Normalar Məcəlləsinin göstəricilərinin miqyasından kənara çıxacağı ehtimalına əsasən qurulmuşdur. Nəticə

etibarilə, verilmiş uyğunluq səviyyəsi ilə birbaşa əlaqəli olan seçilmiş fəaliyyətlər, metod və vasitələr, hətta ASS KTS dəstəkləsə belə, qəti deyildir.

**ASS KTS-nin təşkili**

İnstitusional, məhsul və ya müşahidə səviyyəsində müəyyənləşmiş hər bir göstəricini dəstəkləmək üçün istifadə və tövsiyə olunan fəaliyyətlər, metod və vasitələr müvafiq halda qəbul və istifadə səviyyəsini əks etdirir. Onlar ümumi təsvirdən daha konkret və detallı təsvirə doğru inkişaf edir. Normalar Məcəlləsindəki bəzi göstəricilər köməkçi fəaliyyətlər, metod və vasitələrin tətbiqini asanlaşdırmaq üçün daha ətraflı və daha səciyyəvi xarakter daşıya bilər.

Tövsiyə olunan fəaliyyət, metod və vasitələrin xarakteri müxtəlif göstəriciləri dəstəkləməklə onların çoxsaylı istifadəsinə səbəb ola bilər. Əslində verilmiş bir fəaliyyət, metod və ya vasitə bir prinsiplə bağlı bütün göstəricilərə dəstəyi təmin edə bilər.

**ASS KTS-in xarakteri və məqsədi**

ASS KTS müstəqil sənəddir, Normalar Məcəlləsi ilə sıx bağlı olsa da, onun tərkib hissəsi deyil. Bu sənəd statistika orqanları tərəfindən milli (o cümlədən, digər milli məlumat istehsalçıları) və Avropa səviyyəsində Məcəllənin tətbiqinə yardım edən, bu səbəbdən də ASS-nin mühüm alətinə çevrilən istiqamətverici bir vasitədir. ASS KTS-nin açıq və əlverişli xarakteri tövsiyə olunan fəaliyyət, metod və vasitələrin xüsusi seçiminə imkan verir.

Statistika istehsalçıları ilə bağlı müxtəlif milli tədbirlərlə əlaqədar fəaliyyət, metod və vasitələrin gələcək inkişafını mümkün etmək üçün ASS KTS açıq və çevik olaraq qalmaqdadır. ASS KTS-nin daimi yenilənməsini asanlaşdırmaq üçün müştərək prosedurlar yaradılacaq. ASS KTS eyni zamanda gələcəkdə ekspert rəyləri və başqa qiymətləndirmə formalarında Normalar Məcəlləsinin tətbiqinin izlənməsinə də yardım edə bilər.

Statistikada keyfiyyətlə bağlı işçi qrupu ASS KTS-nin ilk versiyasını daha da gücləndirmək və təkmilləşdirmək məqsədilə ekspert qrupu yaradıb. Bu sənəd ekspert qrupu və işçi qrupu tərəfindən aparılan müzakirələrin yekunudur. ASS KTS-nin açıq və əlverişli xüsusiyyətinə görə işçi qrupu bu sənədə hər il yenidən baxılması və zərurət yarandıqda, məzmununun yenilənməsi qərarına gəlib.

**ASS KTS-nin əhatə etdiyi prinsiplər**

ASS KTS statistik proseslər (7-10-cu prinsiplər) və çıxış statistik məlumatlarla (11-15-ci prinsiplər) bağlı Normalar Məcəlləsinin bütün prinsiplərini əhatə edir. İnstitusional mühit üzrə prinsiplərin bir hissəsi olan 4-cü – “Keyfiyyətin təmin edilməsi üzə öhdəçilik” prinsipi yuxarıda qeyd olunan prinsiplərlə bağlı mühüm əsası müəyyən etdiyi üçün əlavə olunub.

Normalar Məcəlləsinin qalan beş prinsipi ASS KTS-də şərh olunmayıb, çünki onlar Komissiyanın “Avropa Statistikasının dayanıqlı keyfiyyətin idarəetməsinə doğru”

211/2011 Məruzəsinin icrası ilə sıx bağlıdır. Qeyd olunduğu kimi Normalar Məcəlləsinin yenidən baxılmasına əlavə olaraq Komissiyanın Məruzəsində aşağıdakılar təklif edilir:

- Avropa Statistikası üzrə 223/2009 Nizamnaməsinin məqsədyönlü düzəlişi;
- Hər bir üzv dövlət ilə statistikaya inam öhdəçiliklərinin işlənib hazırlanması;
- Avrostatın rolu ilə bağlı Komissiyanın yeni qərarı.

Beləliklə, ASS KTS Normalar Məcəlləsinin aşağıdakı 10 prinsipini əhatə edir:

**İnstitusional mühit:**

4-cü prinsip – Keyfiyyətin təmin edilməsi üzrə öhdəçilik.

**Statistik proseslər:**

7-ci prinsip – Statistik metodologiyaların əsaslılığı;
8-ci prinsip – Statistik üsulların uyğunluğu;
9-cu prinsip – Respondentlərə düşən yükün azaldılması;
10-cu prinsip – Qənaətcillik.

**Çıxış statistik məlumatlar:**

11-ci prinsip – Aktuallıq;
12-ci prinsip – Dəqiqlik və etibarlılıq;
13-cü prinsip – Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə;
14-cü prinsip – Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik;
15-ci prinsip – Bərabər giriş və aydınlıq.

# Avropa Statistika Sisteminin Keyfiyyət Təminatı Strukturu

## İnstitusional mühit

**İnstitusional və təşkilati amillər Avropa Statistikasının təkmilləşdirilməsi, hazırlanması və yayılmasında statistik qurumların səmərəliliyinə və etibarlılığına əhəmiyyətli təsir göstərir. Müvafiq məsələlər peşəkar müstəqillik, məlumatların toplanması üzrə səlahiyyət, ehtiyatların kifayətliliyi, keyfiyyətin təmin edilməsi üzrə öhdəçilik, statistik məxfilik, qərəzsizlik və obyektivlikdir.**

## 4-cü prinsip: Keyfiyyətin təmin edilməsi üzrə öhdəçilik

**Statistika orqanları keyfiyyət öhdəliyi daşıyır. Onlar prosesin və məhsulun keyfiyyətini daima təkmilləşdirmək üçün sistemli və müntəzəm şəkildə güclü və zəif tərəfləri müəyyən edirlər.**

**4.1-ci göstərici: Keyfiyyət sahəsində siyasət müəyyən edilir və bu ictimaiyyət üçün açıqdır. Keyfiyyətin idarə edilməsi üzrə təşkilati struktur və vasitələr mövcuddur.**

### İnstitusional səviyyədə metodlar

**1. Keyfiyyət öhdəliyi aktı.** İctimaiyyətə açıq şəkildə təqdim olunan Keyfiyyət öhdəliyi aktında statistikada keyfiyyətlə bağlı prinsip və öhdəliklər müəyyən edilir və onlar Məqsəd və Konsepsiya aktlarında qeyd olunan məqsədlərə uyğundur.

**2. Keyfiyyətin idarə edilməsi üçün təşkilati struktur.** Statistika orqanı[1] daxilində keyfiyyətin idarə edilməsi üçün aydın təşkilati struktur mövcuddur. Bu cür struktur nümunələr bunlardır:

- Keyfiyyət komitəsi;
- Keyfiyyət meneceri;
- Mərkəzləşdirilmiş keyfiyyət bölməsi;
- Digər strukturlar (məs., “keyfiyyət bələdçiləri” kimi təlim keçmiş və layihə və ya proseslər üzrə təlimçi və ya məsləhətçi fəaliyyəti üçün seçilmiş işçi qrupu).

**3. Keyfiyyət üzrə təlimatların təsviri**. Təlimatlarda statistik istehsal prosesi çərçivəsində keyfiyyətin hansı şəkildə idarə edilməsi üzrə aşağıdakılar müəyyənləşdirilib:

- Statistik Biznes Prosesin Modelinə uyğun və ya hər hansı digər oxşar proses təqdimatı üzrə statistik istehsal prosesinin təsviri və hər mərhələ üzrə sənədləşmənin müəyyən olunması;
- statistik istehsal prosesinin hər bir mərhələsinin keyfiyyətinin yoxlanılması üzrə metodların təsviri.

[1] Statistika orqanı dedikdə Avropa statistikasının işlənməsi, istehsalı və yayılması üçün məsul olan Avrostat, milli statistika institutları (MSİ) və digər milli qurumlar nəzərdə tutulur (bax, Nizamnamə (EC) №223/2009, 4-cü və 5-ci maddələr).

**4. Keyfiyyət təlimatlarının əlçatanlığı.** Keyfiyyət təlimatları yuxarıda qeyd olunduğu kimi ən azından icmal formada bütün istifadəçilər üçün əlçatandır.

**5. Sənədləşmə üzrə infrastruktur**. Keyfiyyətlə bağlı yenilənmiş sənədləşməni təmin etmək üçün müvafiq infrastruktur mövcuddur.

**6. Təlim kursları**. Xüsusi təlim kursları keyfiyyət siyasətinə yardım edir və müntəzəm qaydada müvafiq heyət üçün keçirilir.

**4.2-ci göstərici: Statistik istehsal prosesi keyfiyyətinin planlaşdırılması və yoxlanılması üçün prosedurlar mövcuddur.**

**İnstitusional səviyyədə metodlar**

**1. Metodoloji və texniki dəstək və ümumi vasitələr.** Prosesin keyfiyyətinin monitorinqi və ya keyfiyyət təminatı planının icrası üçün metodiki və texniki dəstək, eləcə də ümumi vasitələr ixtisaslaşmış və ya müəyyən edilmiş bölmələr, xüsusilə Keyfiyyət, Metodologiya və İT tərəfindən təmin edilir.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

**2. Prosesin keyfiyyətinə nəzarət prosedurları**. Statistik istehsalın müxtəlif mərhələlərinin keyfiyyətinə nəzarət prosedurları mövcuddur, məsələn, keyfiyyət təminatı planına və ya oxşar sxemə uyğun, ekspertlər qrupunun müntəzəm görüşlərinin təşkil olunması kimi prosedurlar.

**3. Keyfiyyət təminatı planı.** Keyfiyyət təminatı planı və ya hər hansı digər oxşar sxem xətaları aşkarlamaq və qarşısını almaq, keyfiyyət göstəricilərini qiymətləndirmək və statistik prosesin hər bir mərhələsində müxtəlif məqamlara nəzarət etmək üçün iş standartlarını, rəsmi öhdəlikləri (qanunlar və daxili qaydalar kimi) və keyfiyyətə nəzarət üzrə fəaliyyətlər toplusunu əhatə edir.

Keyfiyyət təminatı planı və ya hər hansı oxşar sxem:

- istifadəçinin ehtiyaclarını nəzərə alır və statistik prosesin aktuallığını yoxlayır;
- səmərəli texniki və təşkilati quruluşu təmin edir;
- inzibati məlumatın istifadəsi də daxil olmaqla məlumatların toplanması keyfiyyətini təmin edir;
- məlumatların işlənməsi keyfiyyətini təmin edir (kodlaşdırma, redaktə, impyutasiya və qiymətləndirmə);
- keyfiyyət üzrə mümkün seçimlərin müntəzəm yoxlanışını təmin edir;
- informasiyanı istifadəçilər üçün əlçatan və anlaşıqlı edir və istifadəçilərdən əks əlaqə və ya rəy toplayır;
- istifadəçilərin keyfiyyəti başa düşməsinə kömək üçün müvafiq metaməlumatlarla təmin edir.

**4.3-cü göstərici: Məhsulun keyfiyyəti müntəzəm olaraq yoxlanılır, mümkün seçimlər baxımından qiymətləndirilir və Avropa Statistikası üzrə keyfiyyət meyarına uyğun məruzə edilir.**

**İnstitusional səviyyədə metodlar**

1. **Məhsulun keyfiyyətinin yoxlanılması prosedurları**. Məhsulun keyfiyyətinin daxili qaydada yoxlanılması üçün keyfiyyət məruzələri ilə bağlı prosedurlar mövcuddur. Nəticələr müntəzəm olaraq təhlil edilir və rəhbərliyə lazımi tədbirlərin görülməsi üçün məlumat verilir.

2. **İstifadəçi məmnunluğu sorğuları**. İstifadəçi məmnunluğu sorğuları və ya digər dolayı metodlar müntəzəm qaydada həyata keçirilir, onların nəticələri açıqlanır, müvafiq yerdə keyfiyyət məruzələrində qeyd olunur və digər ölçülər arasında aktuallığa nəzarət edilir.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

3. **İstifadəçi yönümlü keyfiyyət məruzələri**. İstifadəçi yönümlü keyfiyyət məruzələri ictimaiyyətə açıqdır.

4. **İstehsalçı yönümlü keyfiyyət məruzələri**. İstehsalçı yönümlü keyfiyyət məruzələri müntəzəm olaraq (dövrilik müəyyən edilməlidir, məs., xüsusi Nizamnamə və müşahidənin dövriliyi ilə) arayış metaməlumatları və keyfiyyət göstəricilərinə dair standartlar, xüsusilə Vahid inteqrəedilmiş metaməlumatların strukturu (SIMS) nəzərə alınaraq nəşr olunur.

5. **Məhsulun keyfiyyətinin yoxlanılması.** İstifadəçi və istehsalçı yönümlü keyfiyyət məruzələri müəyyən müddət ərzində müntəzəm keyfiyyət yoxlamaları üçün istifadə edilir.

**4.4-cü göstərici: Əsas çıxış statistik məlumatlara, lazım olduğu təqdirdə müstəqil ekspertin iştirakı ilə, müntəzəm və hərtərəfli baxış keçirilir.**

**İnstitusional səviyyədə metodlar**

1. **Keyfiyyətə baxışı həyata keçirmək üçün plan**. Keyfiyyətə baxışı (audit və özünüqiymətləndirmə kimi) həyata keçirmək üçün müvafiq plan hazırlanıb və müntəzəm olaraq əsas çıxış statistik məlumatlar üçün proseslər yenidən yaradıldığı halda sistemli şəkildə tətbiq olunur.

2. **Keyfiyyətə baxış üzrə struktur**. Daxili audit və özünüqiymətləndirmə üzrə keyfiyyətə baxışı həyata keçirmək üçün müvafiq struktur mövcuddur**.**

3. **Daxili auditorlara təlim keçilməsi.** Daxili auditorlar audit üsulları və davranışları üzrə təlim keçirlər.

4. **İstinad sənədləri**. Keyfiyyətə baxış üzrə istinad sənədləri:

    - keyfiyyət təlimatları və ya keyfiyyət təminatı planı və ya oxşar sxem;

- istehsalçı yönümlü keyfiyyət məruzələri və (və ya) istifadəçi yönümlü keyfiyyət məruzələri;
- istehsalçılar tərəfindən doldurulan özünüqiymətləndirmə anketləri;
- audit müsahibələrindən hesabatlar;
- respondentlər və (və ya) istifadəçilər tərəfindən doldurulan anketlər;
- hər hansı digər məmnuniyyət sorğusu.

**5. Fəaliyyət planları**. Keyfiyyət baxışlarının nəticələri fəaliyyət planında əks olunur.

**6. İstifadəçilərin rəyi**. Müxtəlif istifadəçilərdən gələn rəylər fəaliyyət planında giriş məlumatlar kimi istifadə olunur (istifadəçi məmnunluğu sorğuları və ya fokus qruplarından istifadə edərək).

**7. Kənardan ekspertlərin cəlb olunması**. Əsas statistik domenləri nəzərdən keçirmək üçün kənardan ekspertlər cəlb olunur (məs., BVF tərəfindən Standart və Məcəllələrlə bağlı Məlumatlara Baxış üzrə ekspert (ROSC)).

**8. Bençmarkinq (müqayisə)**. Qabaqcıl təcrübəni müəyyən etmək üçün əsas statistik proseslərlə bağlı digər statistika qurumları ilə bençmarkinq (müqayisələr) həyata keçirilir.

## Statistik proseslər

**Avropa Statistikasını təşkil etmək, toplamaq, işləmək və yaymaq üçün statistika orqanları tərəfindən istifadə olunan proseslərdə Avropa və digər beynəlxalq standartlar, təlimatlar və qabaqcıl təcrübələr tam izlənilir. Statistik məlumatlara inam idarəetmənin və səmərəliliyin məntiqəuyğunluğu sayəsində artır. Əsas baxışlar metodologiyanın əsaslılığı, statistik üsulların əsaslandırılması, respondentlərə düşən yükün azaldılması və qənaətcillik hesab edilir.**

### 7-ci prinsip: Statistik metodologiyaların əsaslılığı

**Statistikanın keyfiyyəti statistik metodologiyaların əsaslılığı ilə təmin edilir. Bunun üçün müvafiq vasitələr, prosedurlar və təcrübə tələb olunur.**

**7.1-ci göstərici: Avropa Statistikasında istifadə olunan ümumi metodoloji yanaşma Avropa və digər beynəlxalq standartlara, təlimatlara və qabaqcıl təcrübəyə uyğundur.**

**İnstitusional səviyyədə metodlar**

1. **Standart metodoloji sənəd.** Statistik proseslərin yerinə yetirilməsi üçün metodoloji çərçivə və prosedurlar standart metodoloji sənədə inteqrasiya olunub və vaxtaşırı təhlil edilir.

2. **Beynəlxalq tövsiyələrdən kənarlaşmaların izahı.** Mövcud Avropa və beynəlxalq metodoloji tövsiyələrdən kənarlaşmalar izah olunur və əsaslandırılır.

**7.2-ci göstərici: Standart anlayışların, təriflərin və təsnifatların statistik qurumda bütünlüklə tətbiq olunmasını təmin edən prosedurlar fəaliyyət göstərir.**

**İnstitusional səviyyədə metodlar**

1. **Anlayışlar, təriflər və təsnifatlar**. Anlayışlar, təriflər və təsnifatlar statistika orqanı tərəfindən müəyyən edilir, Avropa və (və ya) milli qanunvericiliyə uyğun tətbiq edilir və sənədləşdirilir.

2. **Metodoloji infrastruktur**. Metodoloji infrastruktur (məs., bölmələr, şəbəkələr, komitələr) statistik metodları müəyyən edir, onların həyata keçirilməsinə nəzarət edir və nəticələri təsdiq edir. Xüsusilə, biznes-proses modelinin hər bir mərhələsi üzrə (məs., nümunələrin seçilməsi, məlumatın toplanması, emalı və s.) standart vasitələri müəyyən edir.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

3. **Müvafiq ekspertlərin və istifadəçilərin fikirləri**. Müşahidələr və statistik proseslər, münasib olduqda, müvafiq ekspertlərin və istifadəçilərin fikirlərindən yararlanır.

4. **Metodoloji sənədləşmə**. Anlayışlar, metodlar, təsnifatlar kimi metaməlumatlara aid bütün lazımi informasiyanı əhatə edən metodoloji sənədlər hər bir statistik proses üçün hazırlanır və bu icmal şəklində ictimaiyyətə açıqdır.

5. **Seminar və təlimlərdə iştirak**. İşçi heyəti standartlar və təsnifatların və s. tətbiqi üzrə milli və beynəlxalq səviyyədə seminar və təlimlərdə iştirak edir.

**7.3-cü göstərici: Biznes reyestri və əhali müşahidələri üçün məcmu çərçivəsinin yüksək keyfiyyətini təmin etmək məqsədilə onlar daimi qiymətləndirilir və zəruri halda düzəliş edilir.**

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

1. **Biznes reyestrinin yenilənməsi üzrə prosedurlar**. Biznes reyestri üzrə biznes məcmusunda (məs., fəaliyyət dəyişikliyi, doğum, ölüm, birliklər və əldə olunanlar, eləcə də digər struktur dəyişikliklər və əsas dəyişən kəmiyyətlərin dəyişikliyi) bütün müvafiq dəyişikliklərlə bağlı yenilənmə proseduru mövcuddur. Bu yenilənmə daima həyata keçirilir.

2. **Biznes reyestrinin keyfiyyətinin qiymətləndirilməsi**. Biznes reyestr keyfiyyət üzrə müntəzəm izləmə müşahidəsinin mövzusudur və (və ya) keyfiyyət göstəriciləri hesablanır və qiymətləndirilir.

3. **Ev təsərrüfatı reyestrinin yenilənməsi üzrə prosedurlar**. Seçmənin keyfiyyətini təmin etmək üçün ev təsərrüfatı müşahidələri üzrə müvafiq əhali məcmusu müntəzəm olaraq və kifayət qədər tez-tez yenilənir.

4. **Müşahidələrdən alınan rəylər**. Müşahidələrin keçirilməsi zamanı əldə olunan məlumatlar məcmu keyfiyyətini, xüsusən də onun əhatə sahəsini qiymətləndirmək və təkmilləşdirmək üçün istifadə olunur.

**7.4-cü göstərici: Milli təsnifat sistemləri və müvafiq Avropa sistemləri arasında tam uyğunluq mövcuddur.**

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

1. **Milli təsnifatların uyğunluğu**. Milli təsnifatlar müvafiq Avropa təsnifat sistemləri ilə uyğunluq təşkil edir.

2. **Uyğunluq cədvəlləri**. Uyğunluq cədvəlləri sənədləşdirilir və daima yenilənir. İzahlı qeydlər və şərhlər ictimaiyyətə açıqdır.

**7.5-ci göstərici: Müvafiq sahə üzrə ali təhsilli məzunlar işə götürülür.**

**İnstitusional səviyyədə metodlar**

1. **İşə qəbul**. Statistika orqanına işə qəbul müvafiq ixtisas üzrə və açıq şəkildə aparılır.

2. **Vəzifələr üzrə ixtisas tələbləri**. Bütün vəzifələr üzrə müvafiq ixtisas tələbləri müəyyənləşdirilib.

**7.6-cı göstərici: Statistika orqanları öz işçi heyəti ilə bağlı müntəzəm peşəkar təlim siyasətini həyata keçirir.**

**İnstitusional səviyyədə metodlar**

1. **İşçi heyəti üçün peşə təhsili siyasəti.** Adekvat struktur və müntəzəm proseslər işçi heyəti üçün davamlı peşə təhsilini təmin edir ki, bu da insan resursları siyasətinin ayrılmaz hissəsidir.

2. **Davamlı peşə təhsili.** Karyera yolunda davamlı peşə təhsili almağa həvəsləndirilir və qiymətləndirilir.

3. **İşçi heyətin bacarıqlarının yenilənməsi.** İşçi heyətin yeni vasitələr və təhsil sahələri ilə bağlı bacarıqları daim yenilənir.

4. **İşçi heyətin kurslarda iştirakı**. İşçi heyətin müvafiq kurslarda, milli və ya digər beynəlxalq konfranslarda iştirakı stimullaşdırılır.

**7.7-ci göstərici: Metodologiyanı, tətbiq olunan metodların səmərəliliyini artırmaq və mümkün vasitələri təkmilləşdirmək üçün elmi cəmiyyətlərlə əməkdaşlıq həyata keçirilir.**

**İnstitusional səviyyədə metodlar**

1. **Elmi cəmiyyətlərlə əlaqə.** Metodoloji, İT və innovativ proseslərlə bağlı müzakirələri həyata keçirmək üçün işçi qruplar yaradılır, konfranslar və seminarlar təşkil olunur və elmi cəmiyyətlərlə müntəzəm əlaqələr qurulur.

2. **Həmkarlarla beynəlxalq səviyyədə əməkdaşlıq.** İşçi heyəti metodoloji məsələlərlə əlaqədar həmkarlarla beynəlxalq səviyyədə əməkdaşlıq edir.

3. **Konfranslarda iştirak və təqdimatların təşkili.** Müvafiq milli və beynəlxalq konfranslarda bilik və təcrübələrin mübadiləsi üçün müntəzəm iştirak və təqdimatların təşkili dəstəklənir.

4. **Konfransların təşkili.** Milli və beynəlxalq konfranslar təşkil olunur və ASS statistika orqanlarının iştirakı təşviq edilir.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

5. **Xarici qiymətləndirmə.** İstifadə olunan metodların qiymətləndirilməsi, dəyərləndirilməsi və ya auditləri üçün zərurət yarandıqda xarici ekspertlər cəlb olunur.

# 8-ci prinsip: Statistik üsulların uyğunluğu

**Məlumatın toplanmasından onun təsdiq edilməsinə qədər tətbiq olunan müvafiq statistik prosedurlar keyfiyyətli statistikanın əsasını təşkil edir.**

**8.1-ci göstərici: Avropa Statistikasının inzibati məlumatlara əsaslandığı hallarda inzibati məqsədlər üçün istifadə edilən təriflər və anlayışlar statistikada istifadə olunan tərif və anlayışlara əhəmiyyətli dərəcədə yaxınlaşır.**

**İnstitusional səviyyədə metodlar**

**1. İnzibati məlumatın statistik emalı üzrə məsuliyyət**. Statistika orqanı Avropa Statistikası üçün istifadə edilən inzibati məlumatların statistik emalı üzrə məsuliyyət daşıyır.

**2. Statistik və inzibati məlumatların emalında fərqlər**. Statistik emal inzibati məlumatların emalından aydın şəkildə fərqlənir və buraya müvafiq yoxlama qaydaları və keyfiyyətin yoxlanması üçün spesifik prosedurlar daxildir.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

**3. İnzibati və statistik emalla bağlı sənədləşmə**. İnzibati və statistik emal arasında təriflər, anlayışlar, əhatə dairəsi və s. baxımından fərqləri təsvir edən sənədləşmə mövcuddur.

**4. Anlayışlar arasındakı fərqlərə və bununla əlaqədar görülən tədbirlərə dair araşdırmalar**. Anlayışlardakı fərqlər hərtərəfli araşdırılır və bu müxtəlifliklərlə məşğul olmaq üçün müvafiq tədbirlər görülür.

**8.2-ci göstərici: Statistik müşahidələr aparılarkən sorğu anketləri məlumat toplanmazdan əvvəl sistemli şəkildə sınaqdan keçirilir.**

**İnstitusional səviyyədə metodlar**

**1. Sorğu anketlərini qiymətləndirmə və yoxlama prosedurları**. Müvafiq ekspertləri (statistika sahəsində və sorğu anketinin tərtibində) cəlb etməklə sorğu anketlərinin qiymətləndirilməsi və yoxlanması üzrə prosedur mövcuddur.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

**2. Sorğu anketlərinin sınaqdan keçirilməsi**. Məlumatın toplanmasından öncə sorğu anketləri müvafiq metodlarla (sorğu anketinin ilkin sınağı, real vəziyyətdə pilot nümunə, ətraflı müsahibə, fokus qrupları, intervüyer dəstəyi və s.) sınaqdan keçirilir. Cavablandırma müddəti (müsahibənin müddəti) lazım olduğu halda bu mərhələdə hesablanır.

**3. Sınaq nəticələrinin istifadəsi**. Sınaq nəticələri yekun sorğunun tətbiqi prosesində nəzərə alınır və hesabata daxil edilir.

**8.3-cü göstərici: Müşahidə layihələri, seçmənin tərtibi və qiymətləndirmə metodları möhkəm özülə malikdir və mütəmadi olaraq nəzərdən keçirilir və yenidən baxılır.**

**İnstitusional səviyyədə metodlar**

1. **Təlimatlar, metodologiyalar və istifadə olunan metodların baxılması üçün təşkilati struktur.** Müvafiq təşkilati struktur təlimatları təmin edir, müvafiq metodologiyaları tövsiyə edir və vaxtaşırı seçmə müşahidələri, seçmə nümunələrinin seçilməsi üçün istifadə olunan metodlara və qiymətləndirmə metodlarına baxır.

2. **Metodlarla bağlı ictimaiyyətə hesabat verilməsi**. Statistika orqanı olduğu halda seçmə nümunəsinin seçilməsi və qiymətləndirmə metodları ilə bağlı ictimaiyyətə hesabat verir.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

3. **Müşahidə layihələri və seçmə nümunəsinin seçimlərinin standartlara uyğunluğu**. Müşahidə layihələri və seçmə nümunəsinin seçimləri standart metodlara uyğun həyata keçirilir.

4. **Seçmə nümunəsinin tərtibatlarının yenilənməsi**. Seçmə nümunəsinin tərtibatları təkrar müşahidələr üçün vaxtaşırı olaraq yenilənir.

5. **Dəqiqliyi hesablamaq üçün müqayisəli metodlar**. Statistik məlumatların dəqiqliyinin hesablanması üzrə metodlar Avropa Statistikasının dəqiqliyinin müqayisəsinə imkan verir.

6. **Seçmənin dəqiqliyinin ölçülməsi və hesabatlılığı**. Seçmənin dəqiqliyi qiymətləri diqqətlə ölçülür və müvafiq qaydada istifadəçilərə məruzə edilir.

7. **Qiymətləndirmədə tətbiq olunan metodoloji qaydalar**. Qiymətləndirmə metodları, o cümlədən cavabsızlığın düzəlişi, məlumatların kalibrlənməsi və mövsümi düzəlişlər şəffaf metodoloji qaydalara uyğun həyata keçirilir.

**8.4-cü göstərici: Tələb olunduğu halda məlumatın toplanması, daxil edilməsi və kodlaşdırılmasının müntəzəm monitorinqi keçirilir.**

**İnstitusional səviyyədə metodlar**

1. **Təlimatlar, metodologiyalar və istifadə olunan metodların baxılması üzrə təşkilati struktur**. Müvafiq təşkilati struktur təlimatları təmin edir, müvafiq metodologiyaları tövsiyə edir və vaxtaşırı məlumatın toplanması, daxil edilməsi və kodlaşdırılması üzrə istifadə olunan metodlara baxır.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

2. **Məlumatların toplanmasının optimallaşdırılması**. Məlumatların toplanması xərcləri və cavab yükünü azaltmaq, dəqiqliyi yaxşılaşdırmaq və qeyri-seçmə xətalarını azaltmaq məqsədilə optimallaşdırılır.

**3. Respondentlərin sənədlərlə təmin olunması**. Respondentlər bütün lazımi sənədlərlə (məktublar, sorğu anketləri, kitabçalar, xüsusən sorğular sərbəst formada keçirilirsə və mümkün olarsa rəylər) təmin olunur. Bu sənədlər mütəmadi olaraq nəzərdən keçirilir.

**4. Məlumatların toplanması üsullarının monitorinqi proseduru**. Məlumatların toplanması üsullarının vaxtaşırı monitorinqi keçirilir.

**5. İntervüyerlər üçün treninq kursları**. İntervüyerlər üçün təlim kursları keçirilir. Hər bir müşahidə üzrə təlimat və ya vəsait mövcuddur və müsahibə ilə bağlı digər prosedurlar həyata keçirilir.

**6. Cavabsızlıqla bağlı sonrakı prosedur**. Cavabsızlıq olduğu halda sonrakı prosedurlar həyata keçirilir.

**7. Məlumatların kodlaşdırılması metodları.** Məlumatların kodlaşdırılması metodları sənədləşdirilir və saxlanılır.

**8. Avtomatik kodlaşdırma metodlarının nəzərdən keçirilməsi**. Avtomatik kodlaşdırma metodları vaxtaşırı nəzərdən keçirilir və lazım olduqda düzəlişlər edilir.

**9. Məlumatların toplanması və kodlaşdırılması ilə bağlı keyfiyyət göstəriciləri.** Məlumatların toplanması və kodlaşdırılması ilə bağlı keyfiyyət göstəriciləri hazırlanır və keyfiyyət təminatı planı və ya hər hansı oxşar sxemə uyğun təhlil edilir.

**10. Respondentlərə dəstək.** Sorğu anketlərinin doldurulmasında respondentlərə köməklik göstərilir (onlayn kömək, pulsuz zəng, statistiklərdən yardım). Respondentlərin istək və şikayətlərini cavablandırmaq üçün prosedurlar mövcuddur.

**8.5-ci göstərici: Müvafiq redaktə və impyutasiya üsullarından istifadə olunur, onlar mütəmadi olaraq nəzərdən keçirilir, yenidən baxılır və ya zərurət yarandıqda yenilənir.**

**İnstitusional səviyyədə metodlar**

**1. Təlimatlar, metodologiyalar və istifadə olunan metodların baxılması üzrə təşkilati struktur**. Müvafiq təşkilati struktur təlimatları təmin edir, müvafiq metodologiyaları tövsiyə edir və vaxtaşırı redaktə və impyutasiya metodlarına baxır.

**2. Redaktə və impyutasiya üzrə prosedurların təkmilləşdirilməsi və mübadiləsi**. Redaktə və impyutasiya üzrə prosedurların uyğunluğunu təmin etmək üçün onların təkmilləşdirilməsi və mübadiləsi həyata keçirilir.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

**3. Redaktə və impyutasiyanın təhlili**. Redaktə və impyutasiyanın effektinin təhlili məlumatların toplanmasının keyfiyyətinin qiymətləndirilməsinin bir hissəsi olaraq həyata keçirilir.

**4. Redaktə və impyutasiya üsullarının standartlara cavab verməsi**. Redaktə və impyutasiya üsulları standart metodoloji qaydalara uyğun həyata keçirilir və sənədləşdirilir.

**8.6-cı göstərici: Məlumatların yenidən baxılması standartlara və şəffaf prosedurlara uyğun həyata keçirilir.**

**İnstitusional səviyyədə metodlar.**

**1. Yenidən baxılma ilə bağlı təlimatlar və prinsiplər**. Nəşr olunan statistikanın yenidən baxılması üzrə təlimatlar və prinsiplər müntəzəm qaydada tətbiq olunur və istifadəçilərə bildirilir.

**2. Metodologiyanın təkmilləşdirilməsinin təşviqi**. Metodologiyanın təkmilləşdirilməsi müntəzəm və daimi fəaliyyətlərlə (metodologiya ilə bağlı seminarlar, ekspert görüşləri, özünüqiymətləndirmə, audit və s.) təşviq olunur.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

**3. Yenidən baxılmanın izahı və nəşri.** Yenidən baxılma bütün lazımi izahatlarla verilir və istifadəçilərə təqdim olunur.

**4. Yenidən baxılma ilə bağlı keyfiyyət göstəriciləri**. Yenidən baxılma ilə bağlı keyfiyyət göstəriciləri hazırki standartlara uyğun mütəmadi olaraq hesablanır və istifadəçilərə bildirilir.

**8.7-göstərici: İnzibati məlumatların statistik məqsədlərə uyğunluğunu artırmaq üçün inzibati məlumatların tərtibinə statistika orqanları cəlb olunur.**

**İnstitusional səviyyədə metodlar**

1. **İnzibati məlumatla bağlı nizamnamələrin və ya hüquqi aktların monitorinqi proseduru**. İnzibati məlumatların istifadəsini əks etdirən nizamnamələr və ya hüquqi aktlarla bağlı irəliləyişlərin monitorinqi üçün prosedur mövcuddur.

2. **Statistika orqanlarının cəlb olunması və məsləhətləşmə**. İnzibati formalar və faylların yaradılması, nəzərdən keçirilməsi və düzəliş edilməsi zamanı statistika orqanları ilə məshələtləşmələr aparılır və sıraların davamlılığını qiymətləndirmək üçün statistika orqanları layihələndirmə və işlənməyə cəlb olunur.

3. **İnzibati mənbələrin potensialını araşdırmaq üçün prosedur**. Statistik məqsədlər üçün mümkün inzibati məlumat mənbələrinin potensialının araşdırılması üzrə prosedur mövcuddur.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

4. **İnzibati məlumat sahibləri ilə müzakirələr və görüşlər**. İnzibati məlumatlara edilən düzəlişlərdən (məzmun, istehsal prosesi və s.) xəbərdar olmaq üçün statistika orqanı və inzibati məlumat sahibləri arasında mütəmadi müzakirələr və görüşlər keçirilir.

**8.8-ci göstərici: İnzibati məlumat sahibləri ilə bu məlumatların statistik məqsədlər üçün istifadəsi ilə bağlı qarşılıqlı öhdəliyi nəzərdə tutan saziş bağlanır.**

**İnstitusional səviyyədə metodlar**

1. **İnzibati məlumat sahibləri ilə razılaşmalar**. İnzibati məlumatların statistik məqsədlər üçün istifadəsini asanlaşdırmaq üçün statistik qurumlar və inzibati məlumat sahibləri arasında razılaşmalar mövcuddur.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

2. **İnzibati məlumatlar haqqında sənədləşmə**. Statistika orqanı üçün inzibati məlumatların məzmunu və bu məlumatların hazırlama prosesi haqqında sənədləşmə (metodoloji sənəd, anlayışlar, təriflər və məcmular) açıqdır.

3. **İnzibati məlumat sahibləri ilə birgə razılaşmalar**. Məlumatın təhlükəsizliyi, fərdi məlumat fayllarının təmini və son çatdırılma tarixi ilə bağlı birgə razılaşmalar statistika orqanı və inzibati məlumat sahibləri arasında birgə hazırlanır.

**8.9-cu göstərici: Statistika orqanları məlumatların keyfiyyətinin təmin edilməsi məsələlərində inzibati məlumat sahibləri ilə əməkdaşlıq edirlər.**

**İnstitusional səviyyədə metodlar**

1. **İnzibati məlumat sahibini məlumatlandırmaq**. İnzibati məlumat sahibi inzibati məlumatların statistik məqsədlər üçün istifadə tərzi və keyfiyyət məsələləri barəsində məlumatlandırılır.

2. **İnzibati məlumatın keyfiyyətinin qiymətləndirilməsi**. Statistika orqanı təşkilati məsələləri həll edir və məxfiliyə riayət etməklə mümkün qədər inzibati məlumatların keyfiyyətinin qiymətləndirilməsi üçün vasitələri təmin edir.

## 9-cu prinsip: Respondentlərə düşən yükün azaldılması

**Hesabat yükü istifadəçilərin ehtiyacları ilə tarazlaşmalı və respondentlər üçün həddindən artıq olmamalıdır. Statistika orqanları cavab yükünün monitorinqini həyata keçirir və vaxtaşırı bu yükün azaldılması üçün hədəflər müəyyən edir.**

**9.1-ci göstərici: Avropa Statistikası sorğularının həcmi və təfərrüatı tamamilə vacib məlumatların alınması ilə məhdudlaşdırılmışdır.**

### İnstitusional səviyyədə metodlar

1. **Avropa Statistikası üzrə prioritetlər**. Avropa Statistikası üzrə prioritetlər ASS səviyyəsində respondentlərə düşən yükü nəzərə alaraq müəyyən olunur.

2. **Cavab yükü və təfərrüat səviyyəsinin təsdiqi**. Aİ Nizamnamələri ilə nəzərdə tutulmuş cavab yükü və dəyişən kəmiyyətlərin təfsilatı səviyyəsini yoxlamaq üçün Avropa Statistikası üzrə Aİ Nizamnamələrinin təhlili aparılır.

3. **Statistik işlər proqramının qiymətləndirilməsi.** Statistik işlər proqramının məzmunu statistik qurumda təkrarlanmanın və ya artıqlığın aradan qaldırılması üçün qiymətləndirilir.

### Məhsul və ya müşahidə səviyyəsində metodlar

4. **Statistik informasiyaya olan tələblərin təhlili**. Statistik informasiyaya olan Avropa və milli tələblər və domenlər üzrə təfsilat səviyyəsi statistik biznes prosesinin tələbatlarının müəyyənləşdirilməsi mərhələsində təhlil olunur.

5. **Cavab yükünün ölçülməsi**. Cavab yükü vaxtaşırı ölçülür.

6. **Toplanmış hər bir dəyişən kəmiyyətin əsaslandırılması**. Toplanmış hər bir dəyişən kəmiyyət lazımi qaydada əsaslandırılır.

7. **Alternativ məlumat mənbələrinin nəzərə alınması**. Məlumat toplanmasını minimuma endirmək üçün müşahidənin və inzibati məlumatların mövcudluğunu və yararlılığını nəzərə almaqla alternativ məlumat mənbələri ətraflı araşdırılır.

**9.2-ci göstərici: Hesabat yükü mümkün qədər müşahidə məcmusu arasında bölüşdürülür.**

### İntitusional səviyyədə metodlar

1. **Hesabat yükünə baxış**. ASS hesabat yükünə müntəzəm qaydada baxış keçirir.

2. **Sadələşdirmə və ya modernləşdirmə üzrə fəaliyyət planları**. Respondentlər üzərinə düşən yükü azaltmaq üçün sadələşdirmə və ya modernləşdirmə üzrə fəaliyyət planları hazırlanır, tətbiq olunur və monitorinqi aparılır.

3. **Hesabat yükü üzrə səmərəlilik göstəriciləri**. Hesabat yükü üzrə səmərəlilik göstəriciləri menecerlər tərəfindən vaxtaşırı hazırlanır və təhlil edilir.

4. **Statistik seçmə metodlarının istifadəsi.** Hesabat yükünün respondentlərin müəyyən kateqoriyasının üzərinə ehtiyac olmadığı halda düşməsinin qarşısını almaq üçün statistik seçmə metodlarından istifadə olunur.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

5. **Hesabat yükünün azaldılması**. Hesabat yükü müvafiq seçmə tərtibatı ilə azaldılır, məsələn əlaqələndirilmiş seçmədən istifadə etməklə.

6. **Hesabat yükünün hesablanması**. Hesabat yükü sorğu anketini cavablandırmağa, tələb olunan məlumatı almağa, daxili və xarici ekspertləri cəlb eləməyə və həssas məlumatı emal etməyə lazım olan vaxt üzrə hesablanır.

7. **Sualların məhdudlaşdırılması**. Nəşr edilməyəcək informasiyanı toplamaq üçün istifadə olunan suallar məhdudlaşdırılır və əsaslandırılır.

**9.3-cü göstərici: Müəssisələrdən alınan informasiya mümkün qədər onların mühasibatlığından hazır şəkildə əldə edilir və bunun təmin edilməsini asanlaşdırmaq üçün elektron vasitələrdən istifadə olunur.**

**İnstitusional səviyyədə metodlar**

1. **Vəsaitlər və texniki vasitələr**. Məlumatın toplanmasında istifadə olunan elektron vasitələri artırmaq üçün vəsaitlər və texniki vasitələr (məs., proqram təminatı) hazırlanıb.

2. **Müəssisələrdən elektron məlumat toplanması üzrə plan**. Müəssisələrdən məlumatların elektron toplanması üçün plan mövcuddur.

3. **Müəssisə məlumatlarının toplanması üçün veb səhifə**. Müəssisə məlumatlarının toplanması üçün ümumi veb səhifə mövcuddur.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

4. **Müəssisələrin mühasibat uçotu anlayışlarının və İT sistemlərin istifadəsi.** Müəssisələrdən məlumat toplamaq üçün müəssisələrin mühasibat uçotu anlayışlarından və XBRL kimi standartlaşdırılmış İT sistemlərindən istifadə olunur.

5. **Müəssisələr birliyi ilə əməkdaşlıq**. İnformasiyanın əldə edilməsində potensial çətinliklərdən agah olan müşahidə menecerləri adekvat həll yollarını tapmaq üçün müəssisələrlə birgə çalışırlar.

6. **Müəssisənin mühasibat sistemindən məlumatların çıxarılması üçün alətlər**. Müəssisənin mühasibat sistemindən məlumatların birbaşa çıxarılması üçün proqram təminatları mövcuddur.

7. **Müşahidənin nəticələri barədə müəssisənin məlumatlandırılması**. Müəssisələrə müşahidədə iştirakına görə təşəkkür etmək və statistik sistemdə onların əhəmiyyətini artırmaq üçün müşahidələrin nəticələri barədə məlumat vermək.

**9.4-cü göstərici: İnformasiya sorğularının təkrarlanmasının qarşısını almaq üçün, mümkün qədər inzibati mənbələrdən istifadə olunur.**

**İnstitusional səviyyədə metodlar**

1. **İnzibati mənbələrin istifadəsini artırmaq üçün vasitələr**. Avropa əməkdaşlıq şəbəkələri inzibati mənbələrin istifadəsini artırmaq üçün vasitələr hazırlayır.

2. **İnzibati mənbələri tədqiq etmə və istifadə etmə planları**. İnzibati məlumatların statistik məqsədlər üçün tədqiqi və istifadəsi üzrə milli səviyyədə planlaşdırma fəaliyyətləri hazırlanır (məs., müvafiq mexanizmlər, cavab yükünün azalması və ya məhdudlaşdırılmasında əlaqəli şəkildə istifadə olunan modulların hazırlanması, lazım gələrsə milli qanunvericilik və ya sazişlər).

3. **İnzibati məlumatı təmin etmək üçün hüquqi öhdəlik.** İnzibati məlumatlara qanuni çıxış təmin olunur və inzibati qurumlar tələb olduqda inzibati məlumatların təmin edilməsi öhdəliyini daşıyırlar.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

4. **İnzibati mənbələrin mümkünlüyü və keyfiyyəti üzrə təlimat**. Müşahidə menecerləri üçün inzibati mənbələrin mümkünlüyü və onların keyfiyyəti üzrə təlimat mövcuddur.

5. **İnzibati məlumatların toplanması üzrə tətbiqi proqramlar**. Statistik məqsədlər üçün istifadə olunan inzibati məlumatların toplanması üzrə tətbiqi proqramlar hazırlanır və tətbiq olunur.

**9.5-ci göstərici: Müşahidələrin sayının artmasının qarşısını almaq üçün statistik qurumlar arasında məlumat mübadiləsi yayılıb.**

**İnstitusional səviyyədə metodlar**

1. **Məlumat mübadiləsi üçün texniki vasitələr.** Milli statistika sistemi daxilində məlumat mübadiləsi üçün texniki vasitələr (məs., rəsmi sazişlər, veb xidmətlər, ümumi məlumat bazaları) mövcuddur.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

2. **Məlumat üçün anbarların sənədləşdirilməsi**. Məlumatın hazırlanması və arxivləşdirilməsi üçün anbarların sənədləşdirilməsi mövcuddur.

3. **Məlumat arxivlərinin mübadiləsi**. Məlumat arxivləri, lazım olduğu halda, məxfilik siyasətinə əməl edilərək statistika orqanları arasında paylaşılır.

**9.6-cı göstərici: Respondentlərə düşən yükü azaltmaq məqsədilə statistika orqanları məlumat mənbələri arasında əlaqəni təmin edən tədbirlər görürlər.**

**İnstitusional səviyyədə metodlar**

1. **Əsas dəyişən kəmiyyətlərin mübadiləsi**. Statistika orqanları məxfilik qaydalarına əməl edərək məlumat prosesləri arasında ümumi istifadə olunan əsas dəyişən kəmiyyətləri müəyyən edir.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

2. **Məlumat faylı strukturları və ötürülmə formatları ilə bağlı sənədləşmə**. Məlumat faylı strukturları və məlumat mənbələri arasında əlaqəni təmin etmək üçün ötürülmə formatları ilə bağlı sənədləşmə mövcuddur.

## 10-cu prinsip: Qənaətcillik.

**Ehtiyatlar səmərəli istifadə olunmalıdır.**

**10.1-ci göstərici: Statistika orqanlarının ehtiyatlardan istifadə edilməsinə daxili və kənar müstəqil vasitələrlə nəzarət edilir.**

### İnstitusional səviyyədə metodlar

1. **İnsan və maliyyə resursları göstəricilərinin monitorinqi və hesabatlılığı**. İnsan və maliyyə resursları göstəricilərinə mərkəzi qaydada nəzarət edilir və müntəzəm olaraq rəhbərliyə hesabat verilir.

2. **Statistik proseslərdə resursların bölüşdürülməsi**. Uçot sistemləri statistik proseslərdə resursların bölüşdürülməsini mümkün edir.

3. **İnsan resurslarının qiymətləndirilməsi**. İnsan resursları bütün orqan üzrə təlimatlara uyğun hər il qiymətləndirilir. Qiymətləndirmə heyətin bölüşdürülməsini, fəaliyyətini və treninq ehtiyaclarını əhatə edir.

4. **Heyətin rəyi üzrə sorğular**. Heyətin rəyi üzrə sorğular mütəmadi keçirilir.

5. **İT infrastrukturuna baxış**. İT infrastrukturuna mütəmadi baxış keçirilir.

6. **Gözlənilən xərclərin hesablama prosedurları**. Statistik proseslər üçün gözlənilən xərclərin hesablanması prosedurları mövcuddur.

**10.2-ci göstərici: İnformasiya və kommunikasiya texnologiyasının məhsuldar potensialı məlumat toplanması, işlənməsi və yayılması sahəsində daima optimallaşdırılır.**

### İnstitusional səviyyədə metodlar

1. **Resursların, investisiyaların birləşməsi və innovasiya və ya modernləşmə potensialının müəyyənləşdirilməsi**. Mərkəzləşdirilmiş İT və metodoloji vahidlər resursların, investisiyaların birləşməsini və innovasiya və ya modernizasiya potensialının müəyyənləşdirilməsini təmin edir.

2. **İT arxitekturası və strategiyası**. Müvafiq İT arxitekturası və strategiyası mövcuddur və daima yenilənir.

3. **Avtomatik emal texnikasını təkmilləşdirmək üçün siyasətlər, prosedurlar və vasitələr**. Məlumatların toplanması, kodlaşdırılması və dəqiqliyinin yoxlanılması üzrə avtomatik texnikanı təkmilləşdirmək üçün siyasətlər, prosedurlar və vasitələr mövcuddur.

### Məhsul və ya müşahidə səviyyəsində metodlar

4. **Avtomatik emal texnikasının istifadəsinin nəzərdən keçirilməsi**. Avtomatik emal texnikasının istifadəsi mütəmadi olaraq nəzərdən keçirilir.

**10.3-cü göstərici: İnzibati məlumatların statistik potensialını artırmaq və birbaşa müşahidələrə müraciəti məhdudlaşdırmaq üçün qabaqlayıcı tədbirlər görülür.**

**İnstitusional səviyyədə metodlar**

1. **İnzibati məlumat sahibləri ilə razılaşmalar**. İnzibati məlumat sahibləri ilə müvafiq razılaşmalar (məs., xidmət səviyyəli razılaşmalar və ya milli qanunvericilik) imzalanır və mütəmadi olaraq yenilənir. Statistik qurum inzibati məlumatın layihələndirilməsində iştirak etməyə çalışır.

2. **Mümkün inzibati məlumat mənbələrinin qiymətləndirilməsi**. Mümkün inzibati məlumat mənbələrinin qiymətləndirilməsi hər hansı müşahidənin başlanmasından əvvəl həyata keçirilir.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

3. **Məlumatın əlaqələndirilməsi və inteqrasiyası metodları.** Məlumatın əlaqələndirilməsi və inteqrasiyası metodları məlumatın təhlükəsizliyini nəzərə alaraq həyata keçirilir.

4. **İnzibati məlumatın istifadəsini təkmilləşdirmək üçün keyfiyyət göstəriciləri**. İnzibati məlumatların statistik məqsədlər üçün istifadə metodlarını təkmilləşdirmək üçün keyfiyyət göstəriciləri hazırlanır və tərtib edilir.

**10.4-cü göstərici: Statistika orqanları səmərəliliyi və effektivliyi artırmaq üçün standartlaşdırılmış həll yollarını təkmilləşdirir və tətbiq edir.**

**İnstitusional səviyyədə metodlar**

1. **Statistik proseslər üçün proqramlar və prosedurların standartlaşdırılması**. Biznes proses modelinə uyğun statistik istehsal sahələrinin mühüm mərhələlərində, məsələn, seçmədə, registrlərdə, məlumat toplanması və mübadiləsində, standartlaşdırılmış proqramlar və prosedurlar müəyyən edilir və həyata keçirilir.

2. **Standartların hazırlanması və ya qəbul edilməsi strategiyası.** Müxtəlif sahələr üzrə, məsələn, keyfiyyətin idarə edilməsi, prosesin modelləşdirilməsi, proqram təminatının hazırlanması, proqram təminatı alətləri, layihənin və sənədlərin idarə edilməsi, standartların hazırlanması və ya qəbul edilməsi strategiyası mövcuddur.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

3. **Metodoloji sənədləşmədə bildiriş**. Standartlaşdırma ilə uyğunlaşmaq və ya tədricən ona doğru gedən addımları izah edən bildiriş arayış metaməlumatların bir hissəsidir.

## Çıxış statistik məlumatlar

**İstifadəçilərin sərəncamına verilən statistik məlumatlar onların ehtiyaclarını təmin etməlidir. Statistik məlumatlar Avropanın keyfiyyət standartlarına uyğun olmalı və Avropa təşkilatlarının, hökumətlərinin, tədqiqat institutlarının, biznes müəssisələrinin və ümumilikdə ictimaiyyətin ehtiyaclarına xidmət etməlidir.**

## 11-ci prinsip: Aktuallıq.

**Avropanın statistika məlumatları istifadəçilərin tələbatlarını ödəməlidir.**

**11.1-ci göstərici: İstifadəçilərlə məsləhətləşmələrin aparılması, onların tələbatlarının ödənilməsi üçün cari statistik məlumatların aktuallığının və faydalılığının monitorinqinin həyata keçirilməsi, həmçinin onların gələcək tələbatlarının və prioritetlərinin müəyyən edilməsi üzrə qaydalar mövcuddur.**

### İnstitusional səviyyədə metodlar

1. **İstifadəçi ilə məsləhətləşmə haqqında qanunvericilik.** Statistik qanunvericiliyə (milli və Avropa) istifadəçilərlə məsləhətləşmə öhdəliyi daxildir.

2. **İstifadəçilərlə məsləhətləşmə fəaliyyətləri.** İstifadəçilərin məsləhətləşməsi üzrə müntəzəm və strukturlaşdırılmış, o cümlədən istifadəçi komitəsi kimi fəaliyyətlər mövcuddur ki, bu fəaliyyətlərdə əsas diqqət statistik proqramın məzmunu və statistik məhsulun keyfiyyətinə yönəldilib.
3. **Statistikanın istifadəsi haqqında məlumatın təhlili.** Statistikanın istifadəsi haqqında məlumat (məs., yükləmələrin və hesabat abunəçilərinin qiymətləndirilməsi) prioritetlərin müəyyənləşdirilməsinə və istifadəçi məsləhətləşmələrinə yardım etmək üçün təhlil edilir.

### Məhsul və ya müşahidə səviyyəsində təhlil

4. **İstifadəçilərin təsnifatı.** Verilmiş məhsulun istifadəçilərinin təsnifatı mütəmadi olaraq yenilənir və təqdim olunur.

5. **Əsas istifadəçilər və onların istifadə etdikləri məlumatların siyahısı.** Əsas istifadəçilər və onların istifadə etdiyi məlumatların siyahısı, o cümlədən istifadəçinin ödənilməmiş ehtiyaclarının siyahısı mütəmadi olaraq yenilənir və təqdim edilir.

6. **İstifadəçilərlə məsləhətləşmə prosedurları**. İstifadəçilərin statistik məlumatlarla bağlı məsləhətləşməsi prosedurları mövcuddur.

7. **Aktuallığın ölçülməsi və qiymətləndirilməsi**. Aktuallıqla bağlı keyfiyyət göstəriciləri mütəmadi olaraq qiymətləndirilir.

## 11.2-ci göstərici: Prioritet tələbatlar ödənilir və bu iş proqramında öz əksini tapır.

### İnstitusional səviyyədə metodlar

1. **İş proqramında prioritetlər**. İş proqramında istifadəçilərin müxtəlif ehtiyacları arasında prioritetlərin müəyyənləşdirilməsi ilə bağlı prosedurlar tətbiq olunur.

2. **Strateji məqsədlər və proqram planları**. Strateji məqsədlər və proqram planları hazırlanır və müntəzəm dərc olunur.

3. **Ən vacib istifadəçilərlə razılaşmalar**. Ən vacib istifadəçilərlə xidmət səviyyəli və ya buna bənzər razılaşmalar əldə olunur.

4. **İş proqramının qiymətləndirilməsi**. Neqativ prioritetləri və yaranan ehtiyacları müəyyənləşdirmək üçün iş proqramının vaxtaşırı qiymətləndirilməsi həyata keçirilir.

## 11.3-cü göstərici: İstifadəçi məmnuniyyəti müntəzəm olaraq diqqətdə saxlanılır və sistemli şəkildə izlənilir.

### İnstitusional səviyyədə metodlar

1. **İstifadəçi məmnuniyyəti sorğuları**. İstifadəçi məmnuniyyəti sorğuları (o cümlədən, məs., istifadəçi məmnuniyyəti ilə bağlı keyfiyyət göstəricilərinin toplanması) və ya oxşar istifadəçi araşdırmaları həyata keçirilir və təşkilat miqyasında müntəzəm olaraq qiymətləndirilir.

2. **İstifadəçi məmnuniyyəti sorğularından irəli gələn təkmilləşdirici tədbirlər.** İstifadəçi məmnuniyyəti sorğularından irəli gələn təkmiləşdirici tədbirlər müəyyən edilir və həyata keçirilməsi üçün plan tərtib edilir.

### Məhsul və ya müşahidə səviyyəsində metodlar

3. **Əsas istifadəçilərin məmnuniyyətinin qiymətləndirilməsi**. Müəyyən məhsul üzrə əsas istifadəçilərin məmnuniyyətinin qiymətləndirilməsi üçün tədbirlər mövcuddur (məs., xüsusi istifadəçi məmnuniyyəti sorğusu və ya məhsul səviyyəsində göstəricilər).

## 12-ci prinsip: Dəqiqlik və etibarlılıq

**Avropa Statistikası reallığı dəqiq və etibarlı şəkildə əks etdirməlidir.**

**12.1-ci göstərici: İlkin məlumatlar, aralıq nəticələr və çıxış statistik məlumatlar mütəmadi olaraq qiymətləndirilir və əsaslandırır.**

### İnstitusional səviyyədə metodlar

1. **Məlumatın qiymətləndirilməsi və əsaslandırılması üzrə sistemlər.** İlkin məlumatların, aralıq nəticələrin və çıxış statistik məlumatların qiymətləndirilməsi və təsdiqi üzrə sistemlər hazırlanır, tətbiq edilir və idarə olunur.

2. **Məlumatın keyfiyyətinin qiymətləndirilməsi üzrə prosedurlar və təlimatlar**. Məlumatın keyfiyyətinin qiymətləndirilməsi üzrə daxili prosedurlar və təlimatlar mövcuddur və dəqiqlik və etibarlılıq məsələlərinə yönəlib.

### Məhsul və ya müşahidə səviyyəsində metodlar

3. **Nəticələrin digər mənbələrlə müqayisəsi**. Etibarlılığı təmin etmək üçün nəticələr digər mövcud informasiya mənbələri ilə müqayisə edilir.

**12.2-ci göstərici: Seçmə və qeyri-seçmə xətalar ölçülür və Avropa standartlarına uyğun olaraq sistemli şəkildə sənədləşdirilir.**

### İnstitusional səviyyədə metodlar

1. **Xətaların ölçülməsi və azaldılması üzrə prosedurlar və təlimatlar**. Xətaların ölçülməsi və azaldılması üzrə daxili prosedurlar və təlimatlar mövcuddur və aşağıdakı fəaliyyətləri əhatə edə bilər:
   - əsas dəyişən kəmiyyətlər üçün xətaların əsas mənbələrinin müəyyənləşdirilməsi;
   - əsas dəyişən kəmiyyətlər üzrə seçmə xətaların kəmiyyət göstəricisi;
   - statistik proseslərdə əsas qeyri-seçmə xəta mənbələrinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi;
   - potensial kənarlaşmaların kəmiyyət və ya keyfiyyət baxımından müəyyənləşdirilməsi və qiymətləndirilməsi;
   - kənar vahidlərə, eləcə də onların qiymətləndirilməsi məsələlərinə xüsusi diqqət;
   - potensial əhatəetmə xətalarının kəmiyyət göstəricisi;
   - potensial ölçü xətalarının kəmiyyət göstəricisi (mövcud informasiya ilə müqayisə, sorğu anketinin tərtibi və sınaqdan keçirilməsi, intervüyer təlimi haqqında məlumat və s.);
   - cavabsızlıq xətalarının kəmiyyət göstəricisi, o cümlədən qiymətləndirmə mərhələsində cavabsızlıqların texniki həlli üzrə sistematik sənədləşmə və reprezentativlik göstəriciləri;
   - emal xətalarının kəmiyyət göstəricisi;
   - ilk və düzəliş edilmiş qiymətləndirmələr arasındakı fərqlərin təhlili.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

**2. Dəqiqliklə bağlı keyfiyyət hesabatı**. Dəqiqliklə bağlı keyfiyyət hesabatı mövcuddur (həm istehsalçı, həm də istifadəçi yönlü).

**3. Keyfiyyət hesabatı ilə bağlı ASS-nin tövsiyələri**. Dəqiqliklə bağlı keyfiyyət hesabatı ASS-nin tövsiyələri əsasında tərtib edilir.

**4. Xətaların qarşısının alınması və onların azaldılması üzrə metodlar və vasitələr**. Seçmə və qeyri-seçmə xətaların qarşısının alınması və onların azaldılması üzrə metodlar və vasitələr mövcuddur.

**12.3-cü göstərici: Statistik proseslərin təkmilləşdirilməsi məqsədilə düzəlişlər mütəmadi olaraq təhlil edilir.**

**İnstitusional mərhələdə metodlar**

**1. Yenidən baxılma siyasəti**. Prinsip və prosedurları ifadə edən yenidən baxılma siyasəti yazılı formada hazırlanır və Avropa tələblərinə uyğun olaraq ictimaiyyətə təqdim olunur.

**2. Düzəlişlərlə bağlı izahlar**. Düzəlişlərin vaxtı, onların səbəbləri və məğzi izah olunur.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

**3. Yenidən baxılma siyasətinin standart prosedurlarla uyğunluğu**. Hər bir müşahidə üçün yenidən baxılma siyasəti standart və şəffaf prosedurlara uyğun həyata keçirilir.

**4. Əsas göstəricilər üzrə düzəlişlərin həcmi və istiqaməti haqqında məlumat**. Əsas göstəricilər üzrə düzəlişlərin həcmi və istiqaməti haqqında məlumat verilir və açıqlanır.

**5. Düzəlişlərin təhlilinin istifadəsi**. Düzəlişlərin müntəzəm təhlili statistik prosesləri təkmilləşdirmək, o cümlədən əldə edilmiş təcrübə, istehsal tsiklini tənzimləmək üçün istifadə olunur.

## 13-cü prinsip: Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə

**Avropa statistikası vaxtında və gecikmə olmadan yayılmalıdır.**

**13.1-ci göstərici: Vaxtlı-vaxtında olma Avropa və digər beynəlxalq buraxılış standartlarına cavab verir.**

### İnstitusional səviyyədə metodlar

1. **Vaxtlı-vaxtında olma üzrə Avropa standartları ilə uyğunluq.** Vaxtlı-vaxtında olma üzrə Avropa standartlarına uyğunluq mövcuddur.

2. **Buraxılış təqviminin nəşri.** Buraxılış təqvimi vaxtlı-vaxtında olma standartları Avropa nizamnamələri və ya beynəlxalq səviyyədə razılaşmalar əsasında müəyyən edilmiş bütün statistik məlumatları əhatə etməklə nəşr edilir.

3. **Vaxtlı-vaxtında olma üzrə hədəflərdən yayınmalara nəzarət və tədbirin görülməsi prosedurları.** Vaxtlı-vaxtında olma üzrə Avropa və beynəlxalq hədəflərdən yayınmalara müntəzəm nəzarət edilir və bu hədəflərə nail olunmadığı təqdirdə fəaliyyət planı hazırlanır.

### Məhsul və ya müşahidə səviyyəsində metodlar

4. **Vaxtlı-vaxtında olma üzrə keyfiyyət göstəriciləri.** Vaxtlı-vaxtında olma üzrə keyfiyyət göstəriciləri müntəzəm olaraq hesablanır və nəşr olunur.

5. **Vaxtlı-vaxtında olma üzrə keyfiyyət göstəricilərinin təhlili və qiymətləndirilməsi**. Vaxtlı-vaxtında olma üzrə keyfiyyət göstəriciləri mütəmadi olaraq təhlil edilir və münasibdirsə, statistik prosesləri təkmilləşdirmək üçün qiymətləndirilir.

**13.2-ci göstərici: Avropa Statistikasının buraxılışı üzrə gündəlik standart vaxt açıqlanır.**

### İnstitusional səviyyədə metodlar

1. **Buraxılış siyasəti.** Buraxılış siyasəti müəyyənləşdirilir və nəşr olunur. Buraxılış siyasəti müxtəlif nəşrlər (məs., press-relizlər, xüsusi statistik hesabatlar və ya cədvəllər, ümumi nəşrlər) və onların müvafiq buraxılış prosedurlarını fərqləndirir.

2. **Standart gündəlik vaxtda nəşr.** Buraxılışlar gündəlik standart vaxtda nəşr olunur.

**13.3-cü göstərici: Statistik məlumatların yayılması dövriliyi istifadəçi tələbatını mümkün qədər nəzərə alır.**

### İnstitusional səviyyədə metodlar

1. **Dövriliklə bağlı istifadəçilərlə məsləhətləşmə**. Statistika orqanı dövriliklə bağlı müntəzəm olaraq istifadəçilərlə məsləhətləşir.

**13.4-cü göstərici: Məlumatların yayılması qrafikindən kənarlaşma əvvəlcədən elan və izah edilir, həmçinin yeni buraxılış vaxtı müəyyən edilir.**

**İnstitusional səviyyədə metodlar**

1. **Buraxılış təqviminin nəşri**. Buraxılış təqvimi mütəmadi olaraq nəşr olunur.

2. **Tam vaxtında yerinə yetirmə üzrə nəzarət və qiymətləndirmə prosedurları**. Hər bir buraxılışın tam vaxtında yerinə yetirilməsinə müntəzəm olaraq nəzarət edilir və qiymətləndirilir.

3. **Elan edilmiş vaxtdan kənarlaşmaların, onların səbəbinin və yeni buraxılış vaxtının nəşri**. Elan edilmiş vaxtdan kənarlaşma halları öncədən nəşr olunur, səbəblər izah olunur və yeni buraxılış vaxtı elan olunur.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

4. **Tam vaxtında yerinə yetirmə üzrə keyfiyyət göstəricilərinin hesablanması, onlara nəzarət olunması və yayılması üzrə prosedur**. Tam vaxtında yerinə yetirilmə ilə bağlı keyfiyyət göstəriciləri müntəzəm olaraq hesablanır, onlara nəzarət olunur və yayılır.

**13.5-ci göstərici: Ümumi dəqiqliyi məqbul olan faydalı ilkin nəticələrin yayılmasına yol verilir.**

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

1. **İlkin nəticələrin yayılması imkanlarına baxış**. Məlumatın dəqiqliyi nəzərə alınaraq ilkin nəticələrin yayılması imkanlarına müntəzəm baxış keçirilir.

2. **İlkin nəticələrin keyfiyyəti ilə bağlı hesabat**. İlkin nəticələrin buraxılışı zamanı nəşr olunan nəticələrin keyfiyyəti haqqında istifadəçiyə müvafiq məlumat verilir.

3. **Planlaşdırılmış yenidən baxılma siyasəti**. Yenidən baxılması planlaşdırılan əsas çıxış məlumatlar və ya əsas çıxış məlumat qrupları üzrə yenidən baxılmanı əhatə edən nəşr edilmiş siyasət mövcuddur.

## 14-cü prinsip: Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik

**Avropa Statistikası daxili və zaman baxımından uyğundur, həmçinin müxtəlif region və ölkələr arasında müqayisəlidir. Müxtəlif mənbələrdən olan əlaqəli məlumatları birləşdirmək və birgə istifadə etmək mümkündür.**

**14.1-ci göstərici: Statistika daxili əlaqəliyə və uyğunluğa malikdir (məs., müşahidə olunan arifmetik və uçot oxşarlıqları).**

**İnstitusional səviyyədə metodlar**

1. **Daxili əlaqəliyə nəzarət üzrə prosedurlar və təlimatlar**. Daxili əlaqəliyə nəzarət prosedurları və təlimatlar hazırlanır və sistemli şəkildə həyata keçirilir. Bu prosedurlar və təlimatlar zəruri hallarda ilk və yekun məlumat arasında (məs., ardıcıllıq), mikroməlumat və aqreqatlaşdırılmış məlumat arasında, illik, rüblük və aylıq məlumat arasında, statistika və Milli Hesablar arasında uyğunluğa, həmçinin qeyri-deterministik uyğunluğa (məs., iqtisadi artım və məşğulluq arasında uyğunluq, həmçinin etimadlılıq) nəzarət etməlidir.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

2. **Əlavə mənbələrdən olan çıxış məlumatların birləşməsini təmin edən prosedur və təlimatlar**. Prosesə uyğun olaraq prosedur və təlimatlar daxili əlaqəliyi və uyğunluğu təmin etmək üçün əlavə mənbələrdən alınan çıxış məlumatların birləşməsini təmin edir.

**14.2-ci göstərici: Statistik məlumatlar münasib vaxt dövrü üzrə müqayisə olunandır.**

**İnstitusional səviyyədə metodlar**

1. **Anlayışlara edilən dəyişikliklər**. Reallıqda əhəmiyyətli dəyişikliklər müxtəlif anlayışlara (təsnifatlara, təriflərə və baş məcmulara) edilən müvafiq dəyişikliklərdə öz əksini tapır.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

2. **Metodlarda edilən dəyişikliklərin müəyyən edilməsi və ölçülməsi**. Metodlara edilən dəyişikliklər aydın şəkildə müəyyənləşdirilir və düzəlişi asanlaşdırmaq üçün onların təsiri ölçülür.

3. **Dinamika sıralarında fasilə ilə bağlı nəşr və izahat**. Dinamika sıralarındakı fasilələr izah olunur və müəyyən vaxt dövrü üzrə düzəlişləri təmin etmək üçün metodlar ictimaiyyətə açıqlanır.

**14.3-cü göstərici: Statistik məlumatlar müxtəlif müşahidə və mənbələrdə istifadə olunan və əhatə dairəsi, təriflər, vahidlər və təsnifatları nəzərə alan ümumi standartlar əsasında tərtib edilir.**

**İnstitusional səviyyədə metodlar**

1. **Əlaqəlik və uyğunluğun yüksəldilməsi üzrə mexanizm**. Anlayışların ümumi anbarı və ya əlaqəlik və uyğunluğun yüksəldilməsi üzrə mexanizm istifadə olunur.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

2. **Standartlara uyğunlaşmanın qiymətləndirilməsi**. Təriflərin, vahidlərin və təsnifatların standartlara uyğunluğunun vaxtaşırı qiymətləndirilməsi keçirilir və keyfiyyət hesabatında öz əksini tapır.

3. **Standartlardan kənarlaşmaların izahı**. Təriflər, vahidlər və ya təsnifatlarla bağlı standartlardan kənarlaşmalar aşkar edilir və bu kənarlaşmaların səbəbləri izah olunur.

**14.4-cü göstərici: Müxtəlif mənbələrə və müxtəlif dövrlərə aid statistik məlumatlar müqayisə edilir və uzlaşdırılır.**

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

1. **Çıxış statistik məlumatların aidiyyəti məlumatlarla müqayisəsi**. Çıxış statistik məlumatlar eyni domen və ya hadisə üzrə eyni və ya oxşar informasiyanı təmin edən digər statistik və ya inzibati məlumatlarla müqayisə edilir.

2. **Kənarlaşmaların aşkar edilməsi və izahı.** Müxtəlif mənbələrdən qaynaqlanan kənarlaşmalar aşkar edilir və səbəbləri ictimaiyyətə açıq izah olunur.

3. **Çıxış statistik məlumatların uzlaşdırılması**. Çıxış statistik məlumatlar mümkün olduğu qədər uzlaşdırılır.

**14.5-ci göstərici: Avropa Statistika Sistemi çərçivəsində müxtəlif ölkələrin məlumatlarının müqayisəliliyi Avropa Statistika Sistemi və digər statistik sistemlər arasındakı müntəzəm məlumat mübadilə əsasında təmin olunur. Metodoloji tədqiqatlar Üzv Dövlətlər və Avrostat arasında sıx əməkdaşlıq çərçivəsində həyata keçirilir.**

**İnstitusional səviyyədə metodlar**

1. **Müqayisəliliyin qiymətləndirilməsinin institusionallaşdırılması**. Müqayisəliliyin vaxtaşırı qiymətləndirilməsi institusionallaşdırılır.

2. **Metodoloji tədqiqatlar zamanı əməkdaşlıq**. Metodoloji tədqiqatlar Üzv Dövlətlər və Avrostat arasında əməkdaşlıq əsasında həyata keçirilir.

**3. Məlumatların müqayisəliliyinin Avrostat tərəfindən qiymətləndirilməsi**. Avrostat məlumatların müqayisəliliyini Üzv Dövlətlərdən tələb olunan keyfiyyət hesabatlarla qiymətləndirir.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

**4. Asimmetriyaların təhlili**. Asimmetriyaların təhlili mümkün olduğu yerdə keçirilir və Üzv Dövlətlər arasında güzgü statistikası ilə bağlı hesabatlar ictimaiyyətə təqdim olunur.

**5. Güzgü statistikasındakı uyğunsuzluqların müəyyən edilməsi və düzəldilməsi**. Güzgü statistikasındakı uyğunsuzluqlar müəyyən edilir və mümkün olduqda düzəldilir.

## 15-ci prinsip: Bərabər giriş və aydınlıq

**Avropa Statistikası aydın və başadüşülən formada təqdim edilir, uyğun və rahat üsullarla yayılır, müşayiətedici metaməlumat və təlimatlarla mövcuddur və onlara giriş qərəzsizdir.**

**15.1-ci göstərici: Statistik məlumatlar və müvafiq metaməlumatlar düzgün şərhə və anlamlı müqayisələrə kömək edəcək formada təqdim olunur və arxivləşdirilir.**

**İnstitusional səviyyədə metodlar**

1. **Məlumatların yayılması siyasəti**. Məlumatların yayılması təcrübələrini müəyyənləşdirən məlumatların yayılması siyasəti mövcuddur və ictimaiyyətə açıqdır. Statistik nəticələrin yayılması standartlarına baxış prosedurları mövcuddur.

2. **Məlumatların yayılması ilə bağlı istifadəçilərlə məsləhətləşmələr**. Daha münasib yayım üsulları ilə bağlı istifadəçilərlə müntəzəm qaydada məsləhətləşmələr aparılır (məs., fokus qruplar, istifadəçi məmnunluğu sorğuları).

3. **Şərhlər və press-relizlərin yazılması üçün təlim kursları**. Statistik məlumatları şərh etmək və press-relizlər yazmaq üçün təlim kursları təşkil olunur.

4. **Statistik məlumatların və metaməlumatların arxivləşdirilməsi siyasəti**. Statistik məlumatların və metaməlumatların arxivləşdirilməsi siyasəti mövcuddur.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

5. **Nəşrlərə əlavə edilən müqayisələr**. Nəşrlərə lazım gəldikdə anlamlı müqayisələr aydın şəkildə əlavə edilir.

**15.2-ci göstərici. Yayım xidmətlərində müasir informasiya və kommunikasiya texnologiyalarından, lazım olduqda isə ənənəvi çap versiyadan istifadə edir.**

**İnstitusional səviyyədə metodlar**

1. **Veb səhifənin və statistik məlumat bazalarının beynəlxalq təlimatlara uyğunluğu.** Veb səhifə və statistik məlumat bazaları beynəlxalq veb kontentə giriş təlimatlarına mümkün qədər uyğun olmalıdır.

2. **Veb səhifə, statistik məlumat bazaları və istifadəçi cədvəlləri.** Veb səhifə və statistik məlumat bazaları statistik nəticələrin yayılması üzrə əsas vasitələrdir və daha münasib formatlarda (məs., XLS, HTML) istifadəçi cədvəllərinin tərtibini asanlaşdırır.

3. **Məlumat xidməti və ya çağrı mərkəzi xidməti**. Savadlı heyətdən ibarət məlumat xidməti və ya çağrı mərkəzi xidməti müraciətləri cavablandıra və statistik nəticələrə aydınlıq gətirə bilir.

4. **Nəşr kataloqu**. Nəşr kataloqu istifadəçilərə açıqdır.

5. **Məlumatın təkrar yayılmasını asanlaşdırmaq**. Statistik nəticələrin yayılması zamanı elə üsul və formatlardan istifadə olunur ki, mətbuat müxtəlif vasitələrdən məsələn, press-relizlər, hazır cədvəllər, diaqramlar, statistika ilə bağlı xəritələrdən, metaməlumatlardan istifadə etməklə bu nəticələri təkrar yaya bilsin.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

6. **Məlumatın yayılmasının müxtəlif formalarının nəzərdə tutulması**. Məlumatın yayılmasında müxtəlif formalar (optik disk, internet əsaslı vasitələr və tətbiqi proqramlar, çap versiya) nəzərdə tutulub, bu da xüsusi nəticələrin daha yaxşı anlaşılmasına və müqayisəliliyinə, eləcə də qərarların qəbul edilməsində onlardan istifadəni asanlaşdırmağa imkan verir.

**15.3-cü göstərici: Sifarişli təhlillər texniki cəhətdən mümkün olduğu halda aparılır və ictimaiyyətə bu barədə məlumat verilir.**

**İnstitusional səviyyədə metodlar**

1. **Sifarişli təhlillərin mümkünlüyü və şərtləri barədə bildiriş**. Sifarişli tədqiqatların mümkünlüyü və şərtləri aydın şəkildə izah olunur.

2. **Sifarişli çıxış məlumatların təmini**. Sifarişli çıxış məlumatlar tələb olunduğu halda təmin olunur.

3. **Sifarişli təhlillərin nəşri**. Sifarişli təhlillər mümkün olduğu halda ictimaiyyətə açıqlanır.

4. **Sifarişli təhlillər üçün müraciət üzrə məlumat xidməti**. İstifadəçilərin sifarişli təhlillər üçün müraciətini təmin edən informasiya xidməti mövcuddur.

**15.4-cü göstərici: Xüsusi qayda və protokollara əməl etməklə mikroməlumatların tədqiqat məqsədilə əldə olunmasına icazə verilir.**

**İnstitusional səviyyədə metodlar**

1. **Tədqiqatçılarla məsləhətləşmələr**. Tədqiqatçılarla mikroməlumatlara giriş üzrə qaydalar və protokollar, eləcə də onun səmərəliliyi və effektiv giriş haqqında müntəzəm olaraq məsləhətləşmələr aparılır.

2. **Mikroməlumatlara giriş üzrə qayda və protokolların nəşri**. Mikroməlumatlara giriş üzrə qayda və protokollar ictimaiyyətə açıqlanır.

3. **Təhlükəsiz şəraitdə mikroməlumatlara giriş üzrə vasitələr**. Tədqiqatçılar mikroməlumatlara təhlükəsiz şəraitdə giriş əldə edə bilərlər (məs., Təhlükəsizlik Mərkəzləri).

4. **Uzaq məsafədən giriş vasitələri**. Uzaq məsafədən giriş vasitələri müvafiq nəzarət əsasında təmin edilir.

**15.5-ci göstərici. Metaməlumatlar standartlaşdırılmış metaməlumat sistemlərinə uyğun sənədləşdirilir.**

**İnstitusional səviyyədə metodlar**

1. **Statistik nəticələrin və metaməlumatların yayılması**. Bütün statistik nəticələr onların daha yaxşı başa düşülməsini təmin edən müvafiq metaməlumatlarla birlikdə yayılır.

2. **Statistik məhsullarla əlaqələndirilmiş metaməlumatlar**. Metaməlumatlar mövcuddur və statistik məhsullardan ayrı olduğu halda aydın əlaqələr (linklər) təqdim olunur.

3. **Metaməlumatların Avropa Standartlarına uyğunluğu**. Metaməlumatlar Avropa Standartlarına uyğun qurulub və yayılır.

4. **Nəşr formatından asılı olmayan metaməlumat**. Statistik nəticələrlə bağlı metaməlumatlar nəşr formatından (məs., internet, çap versiya) asılı olmadan mövcuddur.

5. **Metaməlumatları yeniləmək və nəşr etmək üzrə prosedurlar**. Metaməlumatlar müntəzəm qaydada yenilənir və yenilənməni təmin edən prosedurlar mövcuddur.

6. **Metaməlumatlarla bağlı məsələlərə aydınlıq gətirilməsi mümkünlüyü.** Məlumat xidməti və ya çağrı mərkəzi xidməti metaməlumatlarla bağlı məsələlərə aydınlıq gətirilməsi üçün mövcuddur.

7. **Metaməlumatlarla bağlı işçi heyəti üçün təlim kursları**. Metaməlumatlarla bağlı işçi heyəti üçün təlim kursları təşkil edilir.

**15.6-cı göstərici: İstifadəçilərə statistik proseslərin metodologiyası, o cümlədən inzibati məlumatların istifadəsi haqqında məlumat verilir.**

**İnstitusional səviyyədə metodlar**

1. **Keyfiyyət hesabatlarının hazırlanması planı**. Standartlaşdırılmış və yenilənmiş istifadəçi yönümlü keyfiyyət hesabatları və metodoloji sənədlər statistik qurumun işlər proqramında nəzərdə tutulub.

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

2. **Keyfiyyət hesabatlarının və metodoloji sənədlərin nəşri**. İstifadəçi yönümlü keyfiyyət hesabatları və metodoloji sənədlər ictimaiyyətə açıqdir.

**15.7-ci göstərici: Çıxış statistik məlumatların keyfiyyətinin Avropa Statistikasının keyfiyyət meyarı ilə uyğunluğu barədə istifadəçilərə məlumat verilir.**

**Məhsul və ya müşahidə səviyyəsində metodlar**

1. **Keyfiyyət hesabatlarının nəşri**. İstifadəçi yönümlü keyfiyyət hesabatları ictimaiyyətə açıqdir.
2. **Keyfiyyət hesabatlarının ASS standartları və təlimatları ilə uyğunluğu**. İstifadəçi yönümlü keyfiyyət hesabatları ASS-nin keyfiyyət hesabatları üzrə standartları və təlimatlarına uyğun izah olunur.